“Regional” Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti

---

**Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 (on min) ədəd**

**faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

**Bakı – 2026**

## MÜNDƏRİCAT


**BƏYANAT** ........ 3

**XÜLASƏ**

1. Xəbərdarlıq ........ 4
2. Emitent haqqında məlumat ........ 4
3. İstiqrazlar haqqında məlumat ........ 6
4. Risk faktorları ........ 7
5. Təklif ........ 8

**İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT**

6. Emitentin auditorları barədə məlumat ........ 11
7. Seçilmiş maliyyə məlumatı ........ 11
8. Emitent barədə məlumat ........ 13
9. Emitentin biznesinin icmalı ........ 13
10. Digər təşkilatlarda iştirak ........ 14
11. Tendensiyalar barədə məlumat ........ 14
12. Gəlir proqnozu ........ 14
13. Emitentin idarəetmə və nəzarət orqanları ........ 14
14. Rəhbərliyin işgüzar praktikası ........ 15
15. Emitentin nizamnamə kapitalında mühim iştirak payına sahib olan şəxslər ........ 16
16. Emitentin maliyyə məlumatları ........ 17
17. Emitent haqqında əlavə məlumatlar ........ 21

**İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT**

18. Əsas məlumat ........ 23
19. İstiqrazlar barədə məlumat ........ 24
20. Təklifin şərtləri ........ 26
21. Ticarətə buraxılma və onun tənzimlənməsi ........ 27
22. Kredit reytinqləri 28

# B Ə Y A N A T

## EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "Regional" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin hər birinin nominal dəyəri 100 (bir yüz) manat, 10 000 (on min) ədəd, ümumi məbləği 1 000 000 (bir milyon) manat təmin edilməmiş faizli, sənədsiz, adlı istiqrazların Emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir faktın gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

"Regional" BOKT Məhdud Məsuliyyətli
Cəmiyyətinin
Direktoru:
Şərifov Mobil Famil oğlu

AZƏRBAYCAN RESPUBLİKASI Bank olmayan kredit təşkilatı REGIONAL Non banking credit institution AZERBAIJAN REPUBLIC

_______________________ (imza )M.Y.

Tarix: 05 may 2026

"Regional" BOKT Məhdud Məsuliyyətli
Cəmiyyətinin
Baş mühasibi:
Məsimova Firuzə Sabir qızı

_______________________ (imza )M.Y.

Tarix: 05 may 2026

**Qeyd: Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.**

**Bakı – 2026**

# XÜLASƏ

## 1. Xəbərdarlıq

1.1. **Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.**

1.2. **İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar verməzdən əvvəl bu Emissiya Prospektini oxuduqdan sonra həyata keçirilməlidir.**

1.3. **Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.**

## 2. Emitent haqqında məlumat

2.1. **Emitentin tam adı:** "Regional" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti

2.2. **Emitentin olduğu yer və qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Xətai Pr, ev 21, (1-ci mərtəbə, 1-ci yarusunda yerləşən qeyri-yaşayış sahəsi).

2.3. **Emitentin təşkilatı-hüquqi forması:** Məhdud Məsuliyyətli Cəmiyyəti

2.4. **Emitent və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**
Azərbaycanın "Regional" Bank olmayan Kredit Təşkilatı olan MMC-nin inkişaf tarixi 12 ili əhatə edir. "Regional" BOKT MMC-nə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 01 avqust 2014-cü il tarixli BKT-26 saylı müddətsiz lisenziya verilmişdir. BOKT "Bank olmayan kredit təşkilatları haqqında" AR Qanununda son üç ildə aparılmış dəyişikliklərdən, eləcə də AR Mərkəzi Bankı tərəfindən qəbul edilmiş 2025-ci ilin 15 fevralından qüvvəyə minmiş "Bank olmayan kredit təşkilatlarıda kredit risklərinin idarə edilməsi" və "Bank olmayan kredit təşkilatlarının fəaliyyətinin prudensial tənzimlənməsi" Qaydalarından irəli gələn vəzifələrin icrasını təmin etmiş, artırılmış minimal kapital tələbini yerinə yetirmişdir. Bundan əlavə təşkilat 2025-ci ilin sonunda kapitalı daha 500,0 min AZN artıraraq 1600100 manata çatdırılmışdır.
Bütövlükdə 2026-cı ilin birinci rübünün nəticəsinə görə BOKT-lərin aktivləri 1471.4 milyon manat təşkil etmişdir. 2025-c il ərzində 5 BOKT-nin lisenziyası ləğv edilmiş, 1 BOKT-na yeni lisenziya verilmişdir. 31.03.2026-cı il tarixinə ölkədə 54 BOKT fəaliyyət göstərməkdədir. Azərbaycanda fəaliyyət göstərən BOKT-ların məcmu aktivlərinin 1238.3 mln manatı müştərilərə verilmiş kreditlərdir. Cari ilin ilk rübünün yekununa görə Azərbaycanda bank olmayan kredit təşkilatlarının cəmi kapitalı 667,0 milyon manat təşkil edib. BOKT-ların cəmi kapitalı ötən ilin eyni dövrü ilə müqayisədə 245,2 milyon manat, yəni 58,1%, ötən ilin sonuna nəzərən isə 102,7 milyon manat, yəni 18,2% artıb. Birinci rüb ərzində kapitalın artımında 48,4 milyon manat nizamnamə kapitalının, 55,2 milyon manat isə bölüşdürülməmiş xalis mənfəətin payına düşüb. 1,2 milyon manat yaradılmış ehtiyat kapitala mənfi təsir göstərmişdir.
Emitent Azərbaycan Respublikasının kredit və maliyyə bazarlarında fəaliyyət göstərir. Lombardlar, kommersiya bankları və kredit verilişi ilə məşğul olan yerli və xarici şirkətlər ilə daimi rəqabət halındadır. Cəmiyyət maliyyə bazarında dayanıqlı mövqe tutmuş və fəaliyyəti ərzində müştərilərin inamını doğrultmuşdur. Bizim kredit anlayışımız müştəri yönümlü yanaşma ilə güvənə və ədalətə əsaslanan şəffaf və mütərəqqi kredit xidməti göstərməkdir. "Regional" BOKT MMC-nin müştərilərinə göstərdiyi yüksək və operativ xidmət onun kredit bazarında möhkəmlənməsinə səbəb olmuşdur. BOKT öz strateji planına uyğun olaraq bazara yeni rəqəmsal xidmətlər çıxarılması ərəfəsindədir və bunun üçün texnoloji yeniliklərin tətbiqinin icrasını başa çatdırmışdır. Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar "Regional" BOKT MMC-də qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır.

2.5. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin digər hüquqi şəxlərin nizamnamə kapitalında payı yoxdur.

2.6. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

2.7. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Müstəqil auditor Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən Azərbaycan Respublikası ərazisində auditor fəaliyyətini həyata keçirməyə icazə verən 05 avqust 2022-ci il tarixdə qeydiyyata alınmış SA/376 qeydiyyat saylı icazə əsasında fəaliyyət göstərən sərbəst auditor Yusifova Gülnarə

İsfəndiyar qızının verdiyi audit rəyinə əsasən "Regional" BOKT MMC-nin maliyyə hesabatları bütün əməliyyatlı aspektlər baxımından təşkilatın 2024-cü təqvim ilinin sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir. Müstəqil auditorun verdiyi rəyə əsasən müəssisənin gəliri 31 dekabr 2024-cü il tarixdə bitən il üzrə 1.238.240.20 AZN, xərcləri isə 1,046,471.33 AZN olmuşdur. Nəticədə müəssisə 31 dekabr 2024-cü il tarixdə bitən ili 191,768.87 AZN ümumi mənfəətlə başa vurmuşdur.

Müstəqil auditor Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən Azərbaycan Respublikası ərazisində auditor fəaliyyətini həyata keçirməyə icazə verən 05 avqust 2022-ci il tarixdə qeydiyyata alınmış SA/376 qeydiyyat saylı icazə əsasında fəaliyyət göstərən sərbəst auditor Yusifova Gülnarə İsfəndiyar qızının verdiyi audit rəyinə əsasən "Regional" BOKT MMC-nin maliyyə hesabatları bütün əməliyyatlı aspektlər baxımından təşkilatın 2025-ci təqvim ilinin sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir. Müstəqil auditorun verdiyi rəyə əsasən müəssisənin gəliri 31 dekabr 2025-ci il tarixdə bitən il üzrə gəlirləri 1.875.652.95 AZN, xərcləri isə 1.606.524-93 AZN olmuşdur. Nəticədə müəssisə 31 dekabr 2025-ci il tarixdə bitən ili 269.128-02 AZN ümumi mənfəətlə başa vurmuşdur.

2.8. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir;**

Son üç maliyyə ilinin sonuna seçilmiş maliyyə məlumatları (2023, 2024, 2025) və 2026-cı ilin 2025-ci ilin analoji dövri ilə müqayisəsi aşağıdakı kimidir:

***Manatla***

| Göstəricilər | 2023 (audit olunub) | 2024 (audit olunub) | 2025 (audit olunub) | 2025 IR | 2026 IR |
|---|---|---|---|---|---|
| Cəmi Aktivlər | 3161359,22 | 4642269,07 | 6587839,78 | 4955130,00 | 6612620,00 |
| Cəmi Öhdəliklər | 2843058,79 | 4132199,77 | 4762468,06 | 3795350,00 | 4852920,00 |
| Cəmi Kapital | 318300,43 | 510069,30 | 1825371,72 | 1159780,00 | 1759700,00 |
| Pul vəsaitləri | 183743,39 | 39535,51 | 1135783,81 | 164770,00 | 264110,00 |
| Kredit portfeli | 2695535,69 | 4176327,62 | 4975343,27 | 4363640,00 | 5220140,00 |
| Gəlirlər | 350617,06 | 710130,20 | 869289,65 | 281530,00 | 339781,00 |
| Mənfəət/Zərər | -197510,01 | 191768,87 | 269128,02 | 49710,00 | 41625,50 |

**Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır.**

2.9. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

"Regional" BOKT MMC-nin son 3 il ərzində müsbət dinamikası onun maliyyə sabitliyinə, pul axınına və ya borc öhdəliklərini vaxtında yerinə yetirmək imkanına müsbət təsir göstərmişdir. Təşkilatın aktivlərinin əsas hissəsini təşkil edən müştərilərə verilmiş kredit portfeli 2023-ci ildə 111%, 2024-cü ildə 54%, 2025-ci ildə 19%, 2026-cı ilin birinci rübü ərzində isə 5% artmışdır. Təşkilatın son 3 il ərzində maliyyələşməsi üçün bank kreditlərindən, buraxılmış istiqrazlardan və təsisçilərin borc vəsaitlərindən istifadə edilmişdir:

| № | Öhdəlik | Qalıq məbləq | Son ödəmə tarixi |
|---|---|---|---|
| 1. | Bank krediti-1 | 500000 | 27.08.2026 |
| 2. | Bank krediti-2 | 300000 | 09.01.2028 |

| | | | |
|---|---|---|---|
| 3. | Bank krediti-3 | 80000 | 01.06.2026 |
| 4. | Bank krediti-4 | 1475513 | 15.08.2029 |
| 4. | istiqraz-1 | 420000 | 07.02.2030 |
| 5. | istiqraz-2 | 1000000 | 24.10.2027 |
| 6. | istiqraz-3 | 1000000 | 03.02.2029 |
| | Cəmi: | 4775513 | |

Müəssisənin kredit portfelini təşkil edən müştərilərin kredit həcmi əsasən kiçik məbləğlərdən formalaşdığı üçün hər hansı iri tranzaksiyanın likvidlik göstəricisinə və gəlir mənbəyinə mənfi təsir etmək ehtimalı çox aşağıdır. Ölkədə illik inflyasiya hədəf diapazonu daxilində müşahidə olumaqdadır. Bu isə öz növbəsində təşkilatın fəaliyyəti və müsbət dinamikası üçün münbit şərait yaradır.

2.10. **Emitentin əsas fəaliyyətlərinin təsviri:**

"Regional" BOKT MMC Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik "Regional" BOKT MMC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

1. Biznes kreditləri;
2. İstehlak kreditləri;
3. Faktorinq;
4. Lizinq.

Siyahısı Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə Cəmiyyət yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilər.

2.11. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**

Cəmiyyətin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Ümumi yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Mühüm iştirak payı – nizamnamə kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahibliyi ehtiva edir. Emitentin hər üç iştirakçısı mühüm iştirak payına sahibdirlər və təşkilatın fəaliyyətinə nəzarət etmək imkanına malikdirlər. BOKT-nin nizamnamə kapitalında hər hansı şəxs tərəfindən mühüm iştirak payının, o cümlədən mühüm iştirak payını artıraraq səsvermə hüququ olan nizamnamə kapitalının 20, 33 və 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə gətirib çıxaran iştirak payının əldə edilməsi üçün BOKT-nin səlahiyyətli idarəetmə orqanı bu barədə qərarı və müraciəti ilə birlikdə sənədləri və məlumatları Mərkəzi Banka təqdim edir.

## 3. İstiqrazlar haqqında məlumat

3.1. **İstiqrazların növü və forması:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz

3.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı

3.3. **İstiqrazlar ilə təsbit olunan məhdudiyyətlər:** İstiqrazlar ilə təsbit olunan hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

3.4. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

3.4.1. İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;

3.4.2. İstiqrazların nominal dəyərindən illik 16 (on altı) % olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;

3.4.3. Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

3.4.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar;

3.4.5. İstiqrazların tədavül müddəti bitmədən öncə, Emitentlə razılaşdırılaraq nominal dəyərindən az olmamaq şərti ilə geri satmaq hüququ.

3.5. **İstiqrazlar üzrə illik faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 16 (on altı) faiz təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 30 (otuz) təqvim günündən bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə faiz ödənişi növbəti ilk iş

günü ödənilir. İstiqrazların tədavül müddəti 5 (beş) ildir (1 il 360 gün hesab edilməklə). İstiqraz sahiblərinə istiqrazlar üzrə əsas məbləğin ödənişi tədavül müddətinin sonunda - ilk istiqrazın yerləşdirildiyi tarixdən 5 (beş) təqvim ili sonra həyata keçiriləcək.

3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.7. **İstiqrazların geri satın alınma şərtləri:** İnvestorlar istiqrazları nominal dəyərindən aşağı olmamaqla Emitentlə geri satış vaxtını razılaşdıraraq vaxtından əvvəl geri satmaq hüququna malikdirlər.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100

burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri - 100 (bir yüz) AZN;

D – İstiqrazların illik gəlirlik dərəcəsi - 16 (on altı);

G – İstiqrazların ödəniş dövrünün müddəti - (30 gün)

3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Təmsilçi nəzərdə tutulmamışdır.

3.10. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.11. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.**

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların ticarətə qəbulu "Bakı Fond Birjası" QSC-nin Müşahidə Şurasının 22.01.2025-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanması və delistinqi" Qaydaları ilə tənzimlənir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan:

AZ022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi 102A ("City Point Baku" biznes Mərkəzi )

Elektron poçt ünvanı: info@bse.az

İnternet səhifəsi: www.bfb.az

Tel: (+99412) 498 98 20

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən emitentin ASC "Xalq Bankı"-da açılmış müvəqqəti cari hesabına köçürülməlidir. İstiqrazların dəyəri pul ilə ödənilir. Hərracın keçirilməsi

tarixi emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 5 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və emitentin internet saytında (www.regionalbokt.az) açıqlanır.

## 4. Risk faktorları

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:**

- valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riskidir. Emitentin aktivləri və passivləri tam şəkildə Azərbaycan manatı ilə formalaşdığından bu riskin birbaşa təsiri yoxdur;
- faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riskidir. Təşkilat öhdəliklər və verilmiş kreditlər arasında balanslaşdırılmış faiz siyasəti apardığından həmin riskin təsiri minimaldır.
- inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk. Azərbaycan Respublikasında inflyasiya səviyyəsi illik inflyasiya hədəf diapazonu daxilində cərəyan edir. Bu faktor təşkilatın bu riskə məruz qalmasını minimallaşdırır.
- likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyünü ehtiva edir. Təşkilatda likvidlik göstəriciləri prudensial tənzimlənmə çərçivəsində həyata keçirilir və likvidlik riskləri cari idarəetmə alətləri ilə idarə olunur.
- əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləridir. Təşkilatın korporativ idarəetmə sisteminə uyğun daxili qaydalar və prosedurlar toplusu mövcuddur. Daxili audit illik yoxlama qrafiki əsasında fəaliyyət göstərir. Bu isə öz növbəsində əməliyyat risklərinin düzgün idarə olunmasına və minimallaşdırılmasına şərait yaradır.
- hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri. Müəssisə hər hansı kontragentlə biznes münasibətlərini qurmazdan əvvəl həmin kontragentin təhlil olunmasını təmin edir. Eyni zamanda bu münasibətlər hüquqi təminatları əks etdirən müqavilələrlə tənzimlənir.
- kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri. BOKT müştəri kreditləşməsini daxili prosedurlar əsasında aparır və konservativ kredit siyasətinə üstünlük erir. Bu isə kredit risklərinin düzgün idarə edilməsini təmin edir. Təşkilatın diversifikasiya göstəricisi (bir müştəriyə düşən ortalama kredit məbləği) 1616 (bir min altı yüz on altı) manatdır ki, bu göstərici həmin risk əmsalın əhəmiyyətli dərəcədə aşağı salır.
- təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər). Bu cür risklərin əhatəli şəkildə təhlil olunaraq sığorta olunması nəzərdə tutulmuşdur.

**4.2. Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

İqtisadi şəraitin dəyişməsi nəticəsində təşkilatın müştərilərinin ödəniş qabiliyyətinin aşağı düşməsi faktoru maliyyə və likvidlik problemlərini yaratmaq ehtimalı mövcuddur. Lakin bu faktorun idarəedilməsi bu Emissiya Prospektinin 4.1-ci bəndində qeyd olunduğu kimi yüksək diversifikasiya və konservativ kredit siyasəti ilə tənzimlənir. Eyni zamanda inflyasiyanın tənzimlənməsi məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankının sərtləşdirilmiş monetar siyasəti alətlərindən istifadə edərək uçot faiz dərəcəsinin artırılması kimi likvidliyin kəskin azalmasına səbəb ola biləcək sərt monetar tədbirlər həyata keçirmə aləti də mövcuddur. Bundan əlavə, 2025-ci ilin 15 fevral tarixindən qüvvəyə minmiş ARMB tərəfindən BOKT-lərin nizamnamə kapitalının artımı, ehtiyatların yaradılması, öhdəliklərin kapitala nisbəti kimi tələblərin sərtləşdirilməsini əks etdirən qaydalar ölkədə fəaliyyət göstərən kredit təşkilatlarının bir çoxunun maliyyə göstəricilərinə təsir etmişdir. Lakin "Regional" BOKT MMC-nin əvvəldən ehtiyat yaratma siyasəti bu keçid dövrünü problemsiz qət etməyə imkan yaratmışdır. Risklər sırasında qeyd edilmiş idarəetmə çatışmazlıqları, hüquqi və tənzimləyici dəyişiklikləri, siyasi qeyri-sabitlik, bazar riskləri və təbii fəlakətlər kimi risk faktorları emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir etmək imkanına malikdir. Həmin risk faktorları BOKT-nın daxili qayda və prosedurları, tətbiq edilmiş korporativ idarəetmə mexanizmlərinin işlək vəziyyətdə olması, hüquqi tənzimlənmə alətlərinin istifadəsi, daxili audit və monitorinqlər, sığorta məhsulları və s. vasitələrlə idarə olunur. Eyni zamanda qeyd olunmalıdır ki, BOKT-nı işçi heyəti təcrübəli mütəxəssislərdən formalaşdırılmışdır.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:**

Emitent yeni emissiya ediləcək istiqrazların bir qismini bitməkdə olan emissiya üzrə investiya etmiş investorlara təklif etməyi, digər hissəsini kütləvi bazarda yerləşdirməyi planlaşdırır. İstiqrazların buraxılmasının məqsədi qismən tədavül müddəti bitməkdə olan emissiya üzrə öhdəliklərin vaxtında və tam şəkildə yerinə yetirilməsi, eyni zamanda, cəlb olunacaq əlavə vəsaitlərin təşkilatın mövcud kredit məhsullarının satışı vasitəsi ilə kredit portfelinin artırılmasına yönəlməsi nəzərdə tutulmuşdur. Kredit portfelinin böyüməsi nəticəsində əldə olunacaq əlavə gəlirlər emitentin mənfəətini artıraraq onun maliyyə dayanıqlığının möhkəmlənməsinə yönəlmişdir.

**5.2. Təklifin şərtlərinin təsviri:**

Yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikası Mərkəzi Bankı (bundan sonra Mərkəzi Bank) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 5 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin və anderrayterin saytında investorlara açıqlanacaqdır.

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, istiqrazlar sifarişlərin icrası şərtlərinə müvafiq olaraq investorlar arasında sifarişlərdə göstərilmiş istiqrazların miqdarına mütənasib miqdarda yerləşdiriləcəkdir. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən emitentin ASC "Xalq Bankı"-da açılmış müvəqqəti cari hesabına köçürülməlidir. İstiqrazların dəyəri pul ilə ödənilir.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil. BFB-nin BOKT "Regional" MMC -nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur. Bu xidmətlərin göstərilməsinə görə MDM və Anderrayter də öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur və maddi maraqları vardır.

**Fond birjası**

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB). Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, listinqdə saxlanılması, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində BFB-nin vəzifələri istiqrazların listinqə daxil edilməsi və listinqdə saxlanması, istiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsini həyata keçirir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi 102A ("City Point Baku" Biznes Mərkəzi )
Elektron poçt ünvanı: info@bsb.az
İnternet səhifəsi: www.bfb.az

Tel: (+99412) 498 98 20
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Mərkəzi depozitar**
Milli Depozit Mərkəzi (MDM). Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- *İstiqrazların saxlanması və uçotunun aparılması;*
- *İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;*
- *Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.*

**Anderrayter**
Bu emissiyanın anderrayteri kimi "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti "İnvestisiya Şirkəti fəaliyyəti"-ni həyata keçirmək üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-02 saylı 09 iyun 2017-ci il tarixli lisenziya hərrac üçün sifarişlərin toplanmasını və BFB-nin ticarət sistemində öhdəlik götürmədən yerləşdirilməsi xidmətlərini göstərir. Bundan əlavə, istiqrazlar üzrə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi, investisiya şirkəti qismində istiqrazlarla öz hesabına əməliyyatların aparılması və istiqrazlar üzrə investisiya məsləhətlərinin verilməsi kimi investisiya fəaliyyətlərini də göstərə bilər.

5.4. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

• Qanunvericiliklə nəzərdə tutulan halda istiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyində 10 (on) faiz dərəcə ilə vergi tutulur. Bununla yanaşı, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən KİV vasitəsilə investorların diqqətinə çatdırılacaqdır.

Xərclər: İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Əqdin məbləğinin 0.02 %-i həcmində BFB komissiyası
- İnvestisiya Şirkətində vasitəçilik üçün yarana biləcək xərclər (Şirkətlərdən asılı olaraq dəyişir)
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- Bank hesabına pul köçürülməsi zamanı köçürmə xərci (bankdan asılı olaraq dəyişir)

# İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**6. Emitentin auditorları barədə məlumat**

6.1. **Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl | Auditorun adı | Auditorun ünvanı | Auditorun üzv olduğu təşkilat |
|---|---|---|---|
| 2023 | İbrahimov Elnur Elxan oğlu | Abşeron rayonu, Xırdalan şəhəri, Mirqasımov küçəsi, ev 9A | AR Auditorlar Palatası |
| 2024 | Yusifova Gülnarə İsfəndiyar qızı | Bakı şəhəri, Yasamal rayonu, Ə.Ələkbərov küçəsi, ev 79, m.48 | AR Auditorlar Palatası |
| 2025 | Yusifova Gülnarə İsfəndiyar qızı | Bakı şəhəri, Yasamal rayonu, Ə.Ələkbərov küçəsi, ev 79, m.48 | AR Auditorlar Palatası |

6.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Emitentin son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi baş vermişdir. Belə ki, 2023-cü maliyyə ilinin nəticələri isə sərbəst auditor İbrahimov Elnur Elxan oğlu tərəfindən$ 2024-cü və 2025-ci maliyyə illəri sərbəst auditor Yusifova Gülnarə İsfəndiyar qızı tərəfindən, həyata keçirilmişdir. Auditorların seçilməsi daha sərfəli qiymət təklifi əsasında aparılmışdır.

**7. Seçilmiş maliyyə məlumatı**

7.1. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlıumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədəmüqayisəli məlumatlar verilməlidir.**

Son üç maliyyə ilinin (2023, 2024, 2025) sonuna seçilmiş maliyyə məlumatları aşağıdakı kimidir:

| Göstəricilər | 2023 (audit olunub) | 2024 (audit olunub) | 2025 (audit olunub) |
|---|---|---|---|
| Cəmi Aktivlər | 3161359,22 | 4642269,07 | 6587839,78 |
| Cəmi Öhdəliklər | 2843058,79 | 4132199,77 | 4762468,06 |
| Cəmi Kapital | 318300,43 | 510069,30 | 1825371,72 |
| Pul vəsaitləri | 183743,39 | 39535,51 | 1135783,81 |
| Kredit portfeli | 2695535,69 | 4176327,62 | 4975343,27 |
| Gəlirlər | 350617,06 | 710130,20 | 869289,65 |
| Mənfəət/Zərər | -197510,01 | 191768,87 | 269128,02 |

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin demək olar ki, bütün göstəricilərində artım müşahidə olunur.

Emitentin 2025 və 2026-cı illərin birinci rübü üzrə maliyyə vəziyyəti aşağıdakı kimi olmuşdur:

**Maliyyə vəziyyəti haqqında Hesabat, 2025 və 2026-cı illərin birinci rübü üzrə (audit olunmamış)**

*min manatla*

| | 31.03.2025 | 31.03.2026 |
|---|---|---|
| **AKTİVLƏR** | | |

| | | |
|---|---|---|
| Nəğd pul Bank hesabları | 164.77 | 1014.11 |
| Kreditlərin cəmi | 4363.64 | 5220.14 |
| Xüsusi ehtiyat fondu | 54.69 | 173.6 |
| **Xalis kredirlər (Kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu")** | **4308.95** | **5046,54** |
| Dövlət qiymətli kağızları | | |
| Əsas vəsaitlər | 191.13 | 210.30 |
| Vergi aktivləri | 11.86 | 9.86 |
| Hesablanmış faizlər | 18.77 | 26.53 |
| Digər aktivlər | 259.65 | 305.28 |
| | | |
| **Aktivlərin cəmi** | **4955.13** | **6612.62** |
| **PASSİVLƏR VƏ KAPİTAL** | | |
| Alınmış kreditlər | 800.00 | 880.00 |
| Maliyyə sektorundan alınmış kreditlər | 1929.00 | 1471.51 |
| Ödəniləcək faizlər | | |
| Digər əməliyyatlar | | |
| Digər ödənilməkdə olan məbləğlər | | |
| İşçilərlə heyyəti üzrə hesablaşmalar | | |
| Digər öhdəliklər | 146.35 | 81.41 |
| Buraxılmış borc qiymətli kağızları (Istiqrazlar) | 920.00 | 2420.00 |
| **Öhdəliklərin cəmi** | **3795.35** | **4852.92** |
| KAPİTAL | | |
| Nizamnamə kapitalı | 1100.10 | 1600.10 |
| **Bölüşdürülməmiş mənfəət** | **59.68** | **159.60** |
| Keçmiş illərin xalis mənfəəti/zərəri | 9.97 | 117.97 |
| Cari ilin təsdiq olunmamış xalis mənfəəti/zərəri | 49.71 | 41.63 |
| Kapital ehtiyatları | | |
| **Kapitalın cəmi** | **1159.78** | **1759.7** |
| **Passivlərin cəmi** | **4955.13** | **6612.62** |

**Məcmu gəlirlər haqqında hesabat, 2025 və 2026-cı illərin I rübü üzrə (audit olunmamış)**

| | **31.03.2025** | **31.03.2026** |
|---|---|---|
| Verilmiş kreditlər üzrə | 372.44 | 455.95 |
| Dövlət qiymətli kağızları üzrə | | |
| **Faiz gəlirləri cəmi:** | **372.44** | **455.95** |
| Verilmiş kreditlər üzrə faiz xərcləri | | |
| Digər alınmış kreditlər üzrə faiz xərcləri | 99.43 | 99.86 |
| Qiymətli kağızlar üzrə | 32.88 | 86.45 |
| Digər faiz xərcləri | 8.03 | |
| **Faiz xərcləri cəmi** | **140.34** | **186.31** |
| **Xalis faiz gəlirləri/zərəri** | **232.10** | **269.64** |
| Qeyri-adi gəlirlər | | |
| Digər gəlirlər | 49.43 | 70.14 |
| **Qeyri-faiz gəlirlərinin cəmi** | **49.43** | **70.14** |
| **Cəmi gəlirlər** | **281.53** | **339.78** |
| Əmək haqqı və əlavələr | 119.10 | 137.14 |
| Sosial təminat xərcləri | 22.49 | 24.99 |
| **Əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi** | **141.59** | **162.13** |
| Digər inzibati və əməliyyat xərcləri | 69.52 | 76.18 |
| **Qeyri-faiz xərclərinin cəmi** | **211.11** | **238.31** |
| **Cəmi gəlirlər** | **70.42** | **101.47** |
| "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırımlar | 24.19 | 59.84 |
| **Vergidən əvvəlki mənfəət** | **49.71** | **41.63** |
| Mənfəətdən ödənilən vergilər | | |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | |

| | | |
|---|---|---|
| **Vergilər çıxıldıqdan sonra xalis bölüşdürülməmiş mənfəət/zərər** | **49.71** | **41.63** |

**8. Emitent barədə məlumat**

8.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Regional" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti

8.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 18 aprel 2014-cü il tarixində dövlət qeydiyyatına alınmışdır, VÖEN: 1303639731

8.3. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Mövcud deyil.

8.4. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:** Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Xətai Pr, ev 21, (1-ci mərtəbə, 1-ci yarusunda yerləşən qeyri-yaşayış sahəsi). info@regionalbokt.az, www.regionalbokt.az (+99450) 2612256

8.5. **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Dərc olunma tarixindən sonra yeni investisiya layihələri olmamışdır.

8.6. **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Emitentin idarəetmə orqanlarının onun gələcək investisiyaları ilə bağlı öhdəlikləri yoxdur.

8.7. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**
BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:
- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi 102A ("City Point Baku" Biznes Mərkəzi )
Elektron poçt ünvanı: info@bsb.az
İnternet səhifəsi: www.bfb.az
Tel: (+99412) 498 98 20
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**9. Emitentin biznesinin icmalı**

9.1. **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**
"Regional" BOKT MMC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.
Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik "Regional" BOKT MMC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

1. Biznes kreditləri;
2. İstehlak kreditləri;
3. Faktorinq;
4. Liznq.

***Emitentin son üç ildə bazara təqdim etdiyi məhsullar (manatla)***

| Kredit məhsulları | 2023 | | | 2024 | | | 2025 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | say | məbləğ | faiz | say | məbləğ | faiz | say | məbləğ | faiz |

| | | | nisbəti | | | nisbəti | | | nisbəti |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Biznes kreditləri** | 0 | 0 | 0,00% | 0 | 0 | 0,00% | 0 | 0 | 0,00% |
| **İstehlak kreditləri** | 600 | 1236000,00 | 45,85% | 1243 | 1770001,46 | 42,38% | 1840 | 1981447,00 | 39,83% |
| **Kənd təsərrüfatı kreditləri** | 636 | 1253373,88 | 46,50% | 1147 | 2252729,13 | 53,94% | 1422 | 2876631,1 | 57,82% |
| **Lombard kreditləri** | 119 | 206161,81 | 7,65% | 88 | 153597,03 | 3,68% | 216 | 117265,17 | 2,36% |
| **cəm:** | 1355 | 2695535,69 | 100% | 2478 | 4176327,62 | 100,00% | 3022 | 4975343,27 | 100,00% |

Siyahısı Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə Cəmiyyət yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilər.

9.2. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Yeni məhsul və ya xidmətlər yaradılmayıb.

9.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatlarına əsasən 31.03.2026-cı il tarixinə ölkədə 54 BOKT fəaliyyət göstərməkdədir. Onların məcmu aktivləri 1471.4 mln manat təşkil edir ki, bunun da 1238.3 mln manatı müştərilərə verilmiş kreditlərdir. Cari ilin ilk birinci rübü ərzində Azərbaycanda bank olmayan kredit təşkilatlarının cəmi kapitalı 667,0 milyon manat təşkil edib. BOKT-ların cəmi kapitalı ötən ilin eyni dövrü ilə müqayisədə 245,2 milyon manat, yəni 58,1%, ötən ilin sonuna nəzərən 102,7 milyon manat, yəni 18,2%. Kapitalın artımı həm nizamnamə kapitalının, həm də bölüşdürülməmiş mənfəətin hesabına baş verib. Kapitalın 352,8 milyon manatı (52,9%) nizamnamə kapitalının, 307.8 milyon manatı (46,1%) isə bölüşdürülməmiş mənfəətin payına düşür.

9.4. Emitent Azərbaycan Respublikasının kredit və maliyyə bazarlarında fəaliyyət göstərir. Lombardlar, kommersiya bankları və kredit verilişi ilə məşğul olan yerli və xarici şirkətlər ilə daimi rəqabət halındadır.

9.5. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil.

**10. Digər təşkilatlarda iştirak**

10.1. **Emitentin digər hüquqi şəxslərdə qısa təsviri:** Emitentin digər hüquqi şəxsin nizamnamə kapitalında payı yoxdur.

10.2. **Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Mövcud deyil.

**11. Tendensiyalar barədə məlumat**

11.1. **Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emissiya prospektinə mənfi təsir edə biləcək hər hansı hadisə baş verməmişdir.

11.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar BOKT "Regional" MMC-də qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır. Ümumilikdə, Bank olmayan kredit təşkilatları sektorunda stabil böyümə tendensiyası hakimdir və mövcud makroiqtisadi gözləntilər çərçivəsində bu tendensiyanın davam etməsi gözlənilir.

**12. Gəlir proqnozu**

Mövcud deyil.

**13. Emitentin idarəetmə və nəzarət orqanları**

13.1. **Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:** Emitentin ali idarəetmə orqanı İştirakçıların Ümumi Yığıncağıdır. İştirakçıların Ümumi Yığıncağı illik və növbədənkənar keçirilir.

Emitentin iştirakçıları haqqında məlumatlar aşağıdakı kimidir:

| Adı, soyadı, atasının adı | Nizamnamə kapitalında payı |
|---|---|
| Əliyev Əli Hüseyn oğlu | 22.92% |
| Bəhrəmov Nahid Oktay oğlu | 22.92% |
| Tağıyeva Nigar Sabir qızı | 54.16% |

Cəmiyyətin iştirakçıları aşağıdakı hüquqlara malikdir:

1. Cəmiyyətin mənfəətinin bir hissəsini dividendlər şəklində almaq.
2. Cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək.
3. Cəmiyyətin fəaliyyətinə dair məlumat almaq,onun mühasibat kitabları və digər sənədləri ilə tanış olmaq.
4. Cəmiyyət ləğv edildiyi halda kreditorlar ilə hesablaşmalardan sonra əmlakdan qalan hissənin və ya onun dəyərini almaq.
5. Cəmiyyətin təsisçilərinin vəzifələri aşağıdakılardır:
6. Səhmlərin dəyərini Azərbaycan Respublikasının qanunveriliciyinə müvafiq olaraq ödəmək.
7. Cəmiyyətin fəaliyyətinə dair bank sirrini təşkil edən məlumatları məxfi saxlamaq.

Emitentin Müşahidə Şurasının tərkibi aşağıdakı kimidir:

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyası |
|---|---|---|
| Abdullayev Samir Rafiq oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək; Şuranın rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq və s. |
| Hacıyev Azər Vahid oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; Rəhbərliyin və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Tağıyeva Nigar Sabir qızı | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; Rəhbərliyin və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s |

Cəmiyyətin İcra Orqanı haqqında məlumatlar aşağıdakı kimidir:

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyası |
|---|---|---|
| Şərifov Mobil Famil oğlu | İdarə Heyətinin sədri | BOKT-nın İdarə Heyətinin Əsasnaməsinə uyğun İdarə Heyətinin fəaliyyətini təşkil edir. Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir. Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır, fəaliyyətinə cari rəhbərlik edir; işçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir və s. |
| Məsimova Firuzə Sabir qızı | İdarə Heyətinin üzvü | İdarə Heyətinin fəaliyyətində iştirak edir. Maliyyə idarəedilməsi blokunun fəaliyyətinə cavabdehlik daşıyır. |
| Kərimov Samir Aydəmir oğlu | İdarə Heyətinin üzvü | İdarə Heyətinin fəaliyyətində iştirak edir. Təşkilatın satış blokunun fəaliyyətinə cavabdehlik daşıyır. |

13.2. **Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat.** Mövcud deyil.

## 14. Rəhbərliyin işgüzar praktikası

14.1. **Audit və mükafatlandırma komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

Audit Komitəsi emitentin auditor nəzarətinin təşkilinə məsul və daxili nəzarət sisteminin qiymətləndirilməsini və monitorinqini həyata keçirən orqandır. Komitə BOKT-da daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkilinə məsul olan struktur bölmədir. Audit Komitəsi BOKT-nın idarəetmə orqanından Komitənin öz funksiyalarını həyata keçirmək üçün bütün məlumatları almaq, kənar auditin təyin edilməsi ilə əlaqədar BOKT-nın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək, kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək, BOKT-nın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq, kənar auditin nəticəsi əsasında maliyyə hesabatlarına ediləcək dəqiqləşmələr və əlavələri nəzərdən keçirmək, daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair İştirakçıların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək, daxili auditorun təyin olunması zamanı öz münasibətini bildirmək və onun işinə qiymət vermək, BOKT-nın daxili qaydaları və strategiyası ilə tanış olmaq, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək səlahiyyətlərinə malikdir.

Emitentin audit komitəsi aşağıdakı tərkibdə fəaliyyət göstərir:

| Adı, soyadı, atasının adı | Vəzifəsi |
|---|---|
| Niftiyev Zülfüqar Ağagül oğlu | Audit Komitəsinin Sədri |
| Əliyev Əli Hüseyn oğlu | Audit Komitəsinin üzvü |
| Abdullayev Vuqar Kamandar oğlu | Audit Komitəsinin üzvü |

Emitentin Mükafatlandırma Komitəsi BOKT-nın uzunmüddətli fəaliyyət nəticələrinə əsaslanmış, strateji hədəflərə nail olmasına yönəldilmiş, mükafatlandırma işini strateji və biznes hədəflərinin realizasiyası istiqamətində proaktiv kadr hazırlığı siyasətinin baza elementi kimi fəaliyyət göstərir. Komitə müstəqil, peşəkar, kollegial qurumdur və onun fəaliyyətinin məqsədi kadr siyasəti və motivasiya sistemi sahəsində məsələlərin həlli üzrə qərarların verilməsindən ibarətdir. Komitənin rəhbər heyət üçün təyinat və mükafatlandırma məsələlərinə dair qaydaların yenidən nəzərdən keçirilməsi və onlara riayət olunması ilə bağlı BOKT-nın rəhbərliyinə tövsiyələrin verilməsi, BOKT əməkdaşlarının mükafatlandırılması sahəsində səmərəli və şəffaf təcrübənin formalaşdırılması ilə bağlı məsələlərin araşdırılması, BOKT-nın rəhbərliyinə, struktur rəhbərlərinin və digər əsas idarəçi vəzifələrin fəaliyyətində davamlılığın təmin olunması məqsədilə kadr təyinatlarına dair tövsiyələrin hazırlanması, əməkdaşların mükafatlandırılması məsələləri üzrə tövsiyələrin hazırlanması, onların fəaliyyətini qiymətləndirilməsi və mükafatlarının məbləğinin müəyyən edilməsi ilə bağlı rəhbərliyə təkliflərin verilməsi səlahiyyətləri mövcuddur.

Emitentin mükafatlandırma komitəsi aşağıdakı tərkibdə fəaliyyət göstərir:

| Adı, soyadı, atasının adı | Vəzifəsi |
|---|---|
| Şərifov Mobil Famil oğlu | Mükafatlandırma Komitəsinin Sədri |
| Məsimova Firuzə Sabir qızı | Mükafatlandırma Komitəsinin üzvü |
| Miriyev Mirsaleh Yunus oğlu | Mükafatlandırma Komitəsinin üzvü |
| Muradova Firuzə Azər qızı | Mükafatlandırma Komitəsinin üzvü |
| Kərimov Samir Aydəmir oğlu | Mükafatlandırma Komitəsinin üzvü |

14.2. **Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına və BOKT-lar haqqında Qanununa uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat:** Emitentin idarəetmə forması Mülki Məcəllə, BOKT-lər haqqında Azərbaycan

Respublikasınının Qanununa və ona müvafiq hazırlanmış nizamnaməsi, təsdiq edilmiş idarəetmə strukturu və daxili qaydaları və prosedurları əsasında müəyyən edilir və tənzimlənir.

## 15. Emitentin nizamnamə kapitalında mühim iştirak payına sahib olan şəxslər

**15.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı, soyadı, atasının adı (vətəndaşlığı) | Səhmlərin sayı | Nizamnamə kapitalında payı |
|---|---|---|
| Əliyev Əli Hüseyn oğlu | 3667 pay | 22.92% |
| Bəhrəmov Nahid Oktay oğlu | 3667 pay | 22.92% |
| Tağıyeva Nigar Sabir qızı | 8667 pay | 54.16% |

**15.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**

Cəmiyyətin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Ümumi yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Mühüm iştirak payı – nizamnamə kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahibliyi ehtiva edir. Emitentin hər üç təsisçisi mühüm iştirak payına sahibdirlər və təşkilatın fəaliyyətinə nəzarət etmək imkanına malikdirlər. BOKT-nin nizamnamə kapitalında hər hansı şəxs tərəfindən mühüm iştirak payının, o cümlədən mühüm iştirak payını artıraraq səsvermə hüququ olan nizamnamə kapitalının 20, 33 və 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə gətirib çıxaran iştirak payının əldə edilməsi üçün BOKT-nin səlahiyyətli idarəetmə orqanı bu barədə qərarı və müraciəti ilə birlikdə sənədləri və məlumatları Mərkəzi Banka təqdim edir. Emitent ilə aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1-ci maddəsində nəzərdə tutulmuşdur. Bundan əlavə Emitent aidiyyəti şəxslərə kreditlərin verilməsi zamanı buna dair prudensial tələblərə və normativlərə əməl edir. Emitentin cari fəaliyyətinin idarə olunmasına nəzarəti Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurası 3 (üç) nəfər üzvdən ibarətdir.

**15.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 16. Emitentin maliyyə məlumatları

**16.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Emissiya prospektinə əlavə edilir.

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN**

**31 DEKABR 2025-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ VƏZİYYƏTİNƏ DAİR HESABAT**

*(Azərbaycan manatı ilə)*

| *Aktivlər* | Qeydlər № | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Mebel və avadanlıqlar | 5 | 32 525.20 | 32 525.20 |
| Hesablama texnikası | 5 | 65 620.53 | 42 086.45 |
| Digər əsas vəsaitlər | 5 | 77 269.62 | 77 269.62 |
| İcarəyə alınmış əsas vəsaitlərin əsaslı təmiri | | 36 845.78 | 36 845.78 |
| Qeyri-maddi aktivlər | 6 | 37 322.76 | 25 269.26 |
| Məcmu uzunmüddətli aktivlərin dəyəri | | **249 583.89** | **213 996.31** |
| ***Qısa müddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 7 | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 1 135 783.81 | 39 535.51 |
| Büdcə ilə hesablaşmalar | 8 | 11 863.48 | 11 863.48 |
| Kreditlərin cəmi | 8 | 4 975 343.27 | 4 176 327.62 |
| Xüsusi ehtiyat fondu | 8 | (141 543.95) | (12 666.73) |
| **Xalis kredirlət (Kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu")** | 8 | **4 833 799.32** | **4 163 660.89** |
| Hesablanmış faizlər | 13 | 118 588.90 | 62 390.67 |
| Digər qısamüddətli aktivlər | 14 | 238 220.38 | 150 821.71 |
| Məcmu qısamüddətli aktivlərin dəyəri | | 6 338 255.89 | 4 428 272.76 |
| **Məcmu aktivlərin dəyəri** | | **6 587 839.78** | **4 642 269.07** |
| **Kapital və öhdəliklər** | | | |
| ***Kapital*** | | | |
| Nizamnamə kapitalı | 16 | 1 600 100.00 | 500 100.00 |
| Əvvəlki illərin bölüşdürülməmiş mənfəəti | 16 | 9 969.30 | (181 799.57) |
| Hesabat dövrünün Bölüşdürülməmiş mənfəəti | 15 | 215 302.42 | 191 768.87 |
| Kapital ehtiyatları | 16 | | |
| **Məcmu kapitalın dəyəri** | | **1 825 371.72** | **510 069.30** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Bank kreditləri öhdəliklər | 17 | 980 000.00 | 800 000.00 |
| Kreditor borclar | 17 | | |
| **Məcmu uzunmüddətli öhdəliklərin dəyəri** | | **980 000.00** | **800 000.00** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Maliyyə sektorundan alınmış kreditlər | 18 | 1 758 572.86 | 1 929 000.00 |
| Ödəniləcək faizlər | 18 | 17 552.02 | 16 463.99 |
| Dövlət büdcəsi qarşısında öhdəliklər | 18 | 53 825.60 | |
| Digər əməliyyatlar | 18 | 0.00 | 466 533.15 |
| Digər ödənilməkdə olan məbləğlər | 18 | 43 766.68 | 16 697.40 |
| İşçilərlə heyyəti üzrə hesablaşmalar | 18 | 639.47 | 638.17 |
| Digər öhdəliklər | 18 | 0.00 | 517.99 |
| Buraxılmış borc qiymətli kağızları (Istiqrazlar) | | 1 908 111.43 | 902 349.07 |
| Məcmu qısamüddətli öhdəliklərin dəyəri | | 3 782 468.06 | 3 332 199.77 |
| **Məcmu öhdəliklərin dəyəri** | | **4 762 468.06** | **4 132 199.77** |
| **Məcmu kapital və öhdəliklərin dəyəri** | | **6 587 839.78** | **4 642 269.07** |

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC-nin rəhbəri**
MOBİL ŞƏRİFOV FAMİL OĞLU

İmza və MY

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC-nin baş mühasibi**
FİRUZƏ MƏSİMOVA SABİR QIZI

İmza

"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN 31 Dekabr 2025-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ( DOLAYI METOD )

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər № | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|
| ***Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti*** | | | |
| Hesabat dövrü üzrə xalis mənfəət | 15 | 215 302.42 | 191 768.87 |
| ***Düzəlişlər:*** | | | |
| Aktivlər üzrə hesablanmış amortizasiya | 21 | | |
| **Düzəlişdən sonrakı pul vəsaitinin hərəkəti** | | **215 302.42** | **191 768.87** |
| Debitor borclarının ( artması ) azalması | 8 | (670 138.43) | |
| Hesablanmış faizlərin( artması ) azalması | 13 | (56 198.23) | |
| Digər qısa müddətli aktivlərin ( artması ) azalması | 14 | (87 398.67) | (21 702.28) |
| Maliyyə sektorundan alınmış kreditlərin ( artması ) azalması | 17-18 | (170 427.14) | |
| Ödəniləcək faizlərin ( artması ) azalması | 18 | 1 088.03 | |
| Vergi və sair məcburi öhdəliklərin ( artması ) azalması | 18 | 53 825.60 | |
| Kreditor borcların ( artması ) azalması | 18 | | (8 550.55) |
| Digər əməliyyatların ( artması ) azalması | 19 | (466 533.15) | |
| Digər ödənilməkdə olan məbləğlərin ( artması ) azalması | | 27 069.28 | |
| İşçilərlə heyyəti üzrə hesablaşmaların ( artması ) azalması | 19 | 1.30 | |
| Sair öhdəliklərin ( artması ) azalması | 17 | (517.99) | (424 493.92) |
| Buraxılmış borc qiymətli kağızların (İstiqrazlar) ( artması ) azalması | 17 | 1 005 762.36 | |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitinin xalis hərəkəti** | | **(148 164,12)** | **(262 977.88)** |
| ***İnvestisiya fəaliyyəti üzrə pul vəsatinin hərəkəti*** | | | |
| Bina, Torpaq, tikili və qurğular əldə edilmişdir | 5 | | |
| Maşın və avandanlıqlar əldə edilmişdir | 5 | (23 534.08) | |
| Nəqliyyat vasitəsi əldə edilmişdir | 5 | | |
| Hesablama texnikası əldə edilmişdir | 5 | | |
| Digər əsas vəsait əldə edilmişdir | 5 | | |
| Qeyri-maddi aktiv əldə edilmişdir | 6 | (12 053.50) | |
| İnvestisiya fəliyyətinə yönəlmiş xalis pul vəsaitləri | | | 118 770.00 |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsatinin xalis hərəkəti** | | (35 587.58) | 118 770.00 |
| ***Maliyyələşmə fəaliyyəti üzrə pul vəsatinin hərəkəti*** | | | |
| Nizamnamə kapitalına pul qoyuluşu | 16 | 1 100 000.00 | |
| Təsisçi tərəfindən verilmiş borc məbləği | 17 | | |
| Bank kreditləri | 17 | 180 000.00 | |
| Ödənilmiş Dividendlər | 15 | | |
| Mənfəətə düzəlişlər | 15 | | |
| **Maliyyələşmə fəaliyyəti üzrə pul vəsatinin xalis hərəkəti** | | **1 280 000.00** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | 9 | **39 535.51** | **183 743.39** |
| **İl ərzində pul vəsaitlərinin artması ( azalması )** | 9 | **1 096 248.30** | **- 144 207.88** |
| ***Xarici valyuta məzənnələrində dəyişikliklərinin təsiri*** | | | |
| **Bank overdraftı çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı** | 9 | **1 135 783.81** | **39 535.51** |

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI**
**MMC-nin rəhbəri**
MOBİL ŞƏRİFOV FAMİL OĞLU

İmza və MY

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI**
**MMC-nin baş mühasibi**
FİRUZƏ MƏSİMOVA SABİR QIZI

İmza

7

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN**
**31 DEKABR 2025-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər № | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|
| *Gəlirlər* | | | |
| Əməliyyat gəliri | 20 | 1 717 892.21 | 1 087 570.00 |
| Maya dəyəri | 21 | - | - |
| **Əməliyyat mənfəəti** | | **1 717 892.21** | **1 087 570.00** |
| Digər Gəlirlər | 22 | 157 756.89 | 150 670.20 |
| Digər Xərclər | 23 | | |
| **Digər Mənfəət** | | **157 756.89** | **150 670.20** |
| Maliyyə gəliri | 24 | 3.85 | |
| Maliyyə xərcləri | 25 | - | - |
| **Maliyyə mənfəəti** | | 3.85 | - |
| *Əməliyyat xərcləri* | | | |
| Amortizasiya xərcləri | 21 | - | - |
| Əmək haqqı bununla bağlı xərclər | 21 | (600 165.48) | (437 714.34) |
| Digər əməliyyat xərcləri | 21 | (1 006 359.45) | (727 526.99) |
| **Toplam əməliyyat xərcləri** | | (1 606 524.93) | (1 165 241.33) |
| **Ümumi mənfəət** | | 269 128.02 | 72 998.87 |
| **"Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmlar** | | | 118 770.00 |
| **Vergiyə cəlb olunan mənfəət** | 26 | **269 128.02** | |
| **Mənfəət vergisi xərci** | 26 | **(53 825.60)** | |
| **İl üzrə mənfəət** | 26 | **215 302.42** | **191 768.87** |

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC-nin rəhbəri**

MOBİL ŞƏRİFOV FAMİL OĞLU

İmza və MY

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC-nin baş mühasibi**

FİRUZƏ MƏSİMOVA SABİR QIZI

İmza

**Əlavə olunmuş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**
**09 fevral 2026-cı il**

**Əlavə olunmuş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**

**31 DEKABR 2025-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər № | Nizamnamə kapitalı | Bolüşdürülməmiş Mənfəət ( ödənilməmiş zərər ) | Kapital ehtiyatları | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü tarixinə olan qalıq** | **16** | **500 100.00** | **(181 799.57)** | | **318 300.43** |
| **2024-cü il üçün kapitaldakı dəyişikliklər** | | | | | |
| **Mühasibat üçotu siyasətində dəyişikliklər** | | - | - | - | - |
| Kapital qoyuluşu | 16 | - | | | - |
| Dövr ərzində xalis mənfəət | 16 | | 191 768.87 | | 191 768.87 |
| Ödənilmiş dividend | 16 | | | | |
| Mənfəətə düzəlişlər | 16 | | - | - | - |
| Yenidən qiymətləndirilmədən əldə olunan gəlir/zərər | | - | - | - | - |
| Vergi yoxlaması zamanı tətbiq edilmiş maliyyə sanksiyası | | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə olan qalıq** | **16** | **500 100.00** | **9 969.30** | | **510 069.30** |
| **2025-ci il üçün kapitaldakı dəyişikliklər** | | | | | |
| **Mühasibat üçotu siyasətində dəyişikliklər** | | - | - | - | - |
| **Yenidən tərtib edilmiş balans** | | - | - | - | - |
| Kapital qoyuluşu | 16 | 1 100 000.00 | | | 1 100 000.00 |
| Dövr ərzində xalis mənfəət | 16 | | 215 302.42 | | 215 302.42 |
| Ödənilmiş dividend | 16 | | | | |
| Mənfəətə düzəlişlər | 16 | | - | - | - |
| Uzunmüddətli aktivlərin yenidən qiymətlənməsindən əldə olunmuş gəlir | | - | - | - | - |
| Vergi məqsədləri üçün gəlirdən çıxılmayan xərclər | | - | - | - | - |
| **31 dekabr 2025-ci il tarixinə olan qalıq** | **16** | **1 600 100.00** | **225 271.72** | | **1 825 371.72** |

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC-nin rəhbəri**

MOBİL ŞƏRİFOV FAMİL OĞLU

İmza və MY

**"REGİONAL" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC-nin baş mühasibi**

**FİRUZƏ MƏSİMOVA SABİR QIZI**

İmza

**Əlavə olunmuş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**

16.2. **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:**

Emitent 2014-cü ildən fəaliyyət göstərir.

16.3. **Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:**

Emitent maliyyə hesabatlarını MHBS-ə uyğun hazırlayır.

16.4. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):**

Mövcud deyil

16.5. **Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:**

Emitentin 2025-ci ilin rüblük (1-ci, 2-ci və 3-cü rüb) maliyyə hesabatları dərc edilməmişdir. Rüblük hesabatlar audit olunmur.

16.6. **Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından dörd ay sonra hazırlandığı nəzərə alınaraq, birinci rübün aralıq audit edilməmiş maliyyə hesabatı təhlilə əlavə edilmişdir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Son audit olunmuş maliyyə hesabatından 4 ay müddət keçmişdir və emissiya prospektdə bu dövr üzrə hesabatlar öz əksini müqayisəli şəkildə tapmışdır.

16.7. **Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):**

Emitentin fəaliyyətinə təsir edəcək hər hansı həlli gözləyən hüquqi proses(lər) mövcud deyildir.

16.8. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində müsbət dəyişikliklər baş vermişdir. Cari ilin birinci rübündə aktivlər 0,4% artaraq 6587,8 min manatdan 6612,62 min manata çatmışdır. Maliyyə sektorundan alınmış kreditlərin məbləği 16,3% azalaraq 1758,5 min manatdan 1471,5 min manata çatmışdır. Kredit portfeli 4,9% artaraq 4975,3 min manatdan 5220,1 min manata çatmışdır. Müştəri sayı 7,6% artaraq 3022-dən 3253 səviyyəsinə qalxmışdır.

## 17. Emitent haqqında əlavə məlumatlar

17.1. **Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:**

Emitentin təşkilati hüquqi forması Məhdud Məsuliyyətli Cəmiyyətdir (MMC), nizamnamə kapitalı 1 600 100 (bir miliyon altı yüz min bir yüz) manat həcmindədir və hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 16001 (on bir min bir) ədəd adi paydan ibarətdir. Emitent adi və ya imtiyazlı səhmlərə malik deyildir.

| Adı, soyadı, atasının adı | Nizamnamə kapitalında payı |
|---|---|
| Əliyev Əli Hüseyn oğlu | 22.92% |
| Bəhrəmov Nahid Oktay oğlu | 22.92% |
| Tağıyeva Nigar Sabir qızı | 54.16% |

17.2. **Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

17.2.1. **Fəaliyyət və məqsədlərin təsviri:**

BOKT "Regional" MMC Azərbaycanın bank olmayan kredit təşkilatıdır və 11 ildir ki, fəaliyyət göstərir. AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən verilmiş 18 aprel 2014-cü il tarixli 1303639731 Dövlət qeydiyyat nömrəsi (VÖEN) ilə qeydiyyata alınmış və 01 avqust 2014-cü il tarixində AR Mərkəzi Bankı tərəfindən BKT-26 saylı müddətsiz lisenziya verilmişdir.

Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunları və normativ hüquqi aktları, Azərbaycan Respublikası Mərkəzi Bankının və maliyyə bazarlarına nəzarət

orqanının normativ xarakterli aktları ilə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

1.1. Cəmiyyətin fəaliyyət müddəti məhdudlaşmır.

1.2. Cəmiyyət, Azərbaycan Respublikası Mərkəzi Bankından aldığı lisenziyasında qadağan edilməmişdirsə, aşağıdakı fəaliyyət növləri ilə məşğul olur:

1. Biznes kreditləri;
2. İstehlak kreditləri;
3. Faktorinq;
4. Lizinq.

Siyahısı Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə Cəmiyyət yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilər.

17.2.2. **İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı: Təsisçilərin Ümumi Yığıncağının səlahiyyətlərinə aşağıdakılar daxildir:**

- *Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;*
- *Cəmiyyətin Direktorunu (İcra Orqanını) təyin etmək və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;*
- *Cəmiyyətin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;*
- *Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;*
- *Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;*
- *Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir;*
- *Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq və fəaliyyətinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;*
- *Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;*

Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar daxildir:

- *Cəmiyyətin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən İcra Orqanından məlumatlar almaq;*
- *Cəmiyyətin Ümumi Yığıncağı və İcra Orqanı üçün tövsiyyələr vermək;*
- *Təsisçilərin Ümumi Yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və təsisçilərin, habelə İcra Orqanının tələbi ilə onların gündəliyi üzrə növbədənkənar iclaslar istisna olmaqla hər bir iclasın gündəliyini qəbul etmək;*
- *Cəmiyyət tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bu pozuntu barəsində Təsisçilərin Ümumi Yığıncağını və İcra Orqanını xəbərdar etmək;*
- *Cəmiyyətin idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və əsasnamələri qəbul etmək;*
- *Cəmiyyətin fəaliyyətinin kompleks və ayrl-ayrı sahələrinin yoxlanılması barədə qərar qəbul etmək;*
- *Cəmiyyətin təşkilati strukturunu müəyyənləşdirmək;*
- *Digər hüquqi şəxslərin kapitalında cəmiyyətin iştirakı barədə qərarlar qəbul etmək;*
- *Cəmiyyətin fəaliyyətinin əsas istiqamətlərini və inkişaf strategiyasını müəyyənləşdirmək, Cəmiyyətin biznes planını təsdiq etmək.*

Emitentin təkbaşçı İcra Orqanı olan Direktorun səlahiyyətlərinə aşağıdakılar daxildir:

- *Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;*
- *Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;*
- *Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatlarını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;*
- *Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərarlar qəbul edir və əmrlər (sərəncamlar) verir;*
- *Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir;*

- *Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir;*
- *Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;*
- *Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüquq ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;*
- *Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarını və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir;*

17.2.3. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

# İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

## 18. Əsas məlumat

18.1. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

Emissiyada iştirak edən aşağıdakı şəxslərin maraqların toqquşması mövcud deyildir.
Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil. BFB-nin BOKT "Regional" MMC -nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur. Bu xidmətlərin göstərilməsinə görə MDM və Anderrayter də öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur və maddi maraqları vardır.

**Fond birjası**

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB). Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, listinqdə saxlanılması, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində BFB-nin vəzifələri istiqrazların listinqə daxil edilməsi və listinqdə saxlanması, istiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsini həyata keçirir.
BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:
- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ022 Bakı şəhəri, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi 102A ("City Point Baku" Biznes Mərkəzi )
Elektron poçt ünvanı: info@bsb.az
İnternet səhifəsi: www.bfb.az
Tel: (+99412) 498 98 20
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Mərkəzi depozitar**

Milli Depozit Mərkəzi (MDM). Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- *İstiqrazların saxlanması və uçotunun aparılması;*
- *İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;*
- *Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.*

**Anderrayter**

Bu emissiyanın anderrayteri "İnvestisiya Şirkəti fəaliyyəti"-ni həyata keçirmək üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-02 saylı 09 iyun 2017-ci il tarixli lisenziya əsasında fəaliyyət göstərən "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətidir. Bu emissiyanın Anderrayteri kimi hərrac üçün sifarişlərin toplanmasını və BFB-nin ticarət sistemində öhdəlik götürmədən yerləşdirilməsi xidmətlərini göstərir. Bundan əlavə, istiqrazlar üzrə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi, investisiya şirkəti qismində istiqrazlarla öz hesabına əməliyyatların aparılması və istiqrazlar üzrə investisiya məsləhətlərinin verilməsi kimi investisiya fəaliyyətlərini də göstərə bilər.

18.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

Emitent yeni emissiya ediləcək istiqrazların bir qismini bitməkdə olan emissiya üzrə investiya etmiş investorlara təklif etməyi, digər hissəsini kütləvi bazarda yerləşdirməyi planlaşdırır. İstiqrazların buraxılmasının məqsədi qismən tədavül müddəti bitməkdə olan emissiya üzrə öhdəliklərin vaxtında və tam şəkildə yerinə yetirilməsi, eyni zamanda, cəlb olunacaq əlavə vəsaitlərin təşkilatın mövcud kredit məhsullarının satışı vasitəsi ilə kredit portfelinin artırılmasına yönəlməsi nəzərdə tutulmuşdur. Kredit portfelinin böyüməsi nəticəsində əldə olunacaq əlavə gəlirlər emitentin mənfəətini artıraraq onun maliyyə dayanıqlığının möhkəmlənməsinə yönəlmişdir.

18.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Nəzərdə tutulmayıb.

18.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

## 19. İstiqrazlar barədə məlumat

19.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Kimitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydaları.

19.2. **İstiqrazların növü və forması:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz

19.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

"Regional" MMC -nin hal hazırda mövcud olan ümumi həcmi 420000 (dörd yüz iyirmi min) AZN, AZ2003023408 Dövlət qeydiyyat nömrəli, ümumi həcmi 1000000 (bir milyon) AZN, AZ2004023407 Dövlət qeydiyyat nömrəli istiqraz və ümumi həcmi 1000000 (bir milyon) AZN, AZ2005023406 Dövlət qeydiyyat nömrəli istiqraz emissiyaları tam olaraq yerləşdirilmişdir.

Yeni buraxılan istiqrazların hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 10 000 (on min) ədəd nəzərdə tutulub.

19.4. **İstiqrazların valyutası:** Azərbaycan manatı

19.5. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin (MDM) olduğu yer: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.

19.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

19.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

- *İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;*
- *İstiqrazların nominal dəyərindən illik 16 (on altı) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;*
- *Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;*
- *Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar;*
- *İstiqrazların tədavül müddəti bitmədən öncə, Emitentlə razılaşdırılaraq nominal dəyərindən az olmamaq şərti ilə geri satmaq hüququ.*

İstiqrazlara təsbit olunan hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

19.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi:** İllik 16 (on altı) faiz

19.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 30 (otuz) təqvim günündən bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə faiz ödənişi növbəti ilk iş günü ödənilir. İstiqrazların tədavül müddəti 5 (beş) ildir (1 il 360 gün hesab edilməklə). İstiqraz sahiblərinə istiqrazlar üzrə əsas məbləğin ödənişi tədavül müddətinin sonunda - ilk istiqrazın yerləşdirildiyi tarixdən 5 (beş) təqvim ili sonra həyata keçiriləcək.

19.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372 - 384-cü maddələri ilə tənzimlənir.

19.11. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

19.12. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmayıb. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

19.13. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** : İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

19.14. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Bu buraxılış daxilində emissiya olunan istiqrazlar təmin edilməmiş formada emissiya edilir.

19.15. **İstiqrazların geri satın alınmasının şərtləri:** İnvestorlar istiqrazları nominal dəyərindən aşağı olmamaqla Emitentlə geri satış vaxtını razılaşdıraraq vaxtından əvvəl geri satmaq hüququna malikdirlər.

19.16. **Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri - 100 (bir yüz) AZN;

D – İstiqrazların illik gəlirlik dərəcəsi - 16 (on altı);

G – İstiqrazların ödəniş dövrünün müddəti - (30 gün)

19.17. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.

19.18. **İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:**

İstiqrazların emissiyası haqqında qərar İştirakçıların Ümumi Yığıncağı tərəfindən 03 saylı, 05 may 2026-cı il tarixli Protokol ilə qəbul olunmuşdur.

19.19. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsi üçün Emitent tərəfindən hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır. İstiqrazlar kütləvi təklif üsulu ilə yerləşdirilən zaman qanunvericiliyə uyğun olaraq istiqrazlar maraqlı şəxslər tərəfindən əldə ediləcəkdir.

19.20. **İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək. Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

## 20. Təklifin şərtləri

20.1. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:**

20.1.1. **Yerləşdirmənin başlanma tarixi:** Yeni emissiya ediləcək istiqrazlar Mərkəzi Bank tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 5 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin və anderrayterin saytında investorlara açıqlanacaqdır.

20.1.2. **Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

20.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektdə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**

Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

20.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

20.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

20.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası və şərtləri:**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir.

İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, istiqrazlar sifarişlərin icrası şərtlərinə müvafiq olaraq investorlar arasında sifarişlərdə göstərilmiş istiqrazların miqdarına mütənasib miqdarda yerləşdiriləcəkdir. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən emitentin ASC "Xalq Bankı"-da açılmış müvəqqəti cari hesabına köçürülməlidir. İstiqrazların dəyəri pul ilə ödənilir.

20.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir. İstiqrazın dəyəri pulla ödənilir.İstiqrazları əldə etmək istəyən investorlar istiqrazların yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq istədiyi istiqrazların dəyərini hərrac günündən gec olmayaraq, emitentin ASC "Xalq Bankı"-da açılmış müvəqqəti cari hesabına köçürməlidirlər.Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların ilk mülkiyyətçilərinin depo hesabına köçürüldüyü andan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

20.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

20.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:**
Yerləşdirmənin başlanma tarixi – yeni emissiya ediləcək istiqrazlar Mərkəzi Bank tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 5 (beş) iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin (www.bfb.az) və emitentin internet saytlarında (www.regionalbokt.az) investorlara açıqlanacaqdır. Yerləşdirmənin başa çatma tarixi qanunvericiliklə nəzərdə tutulmuş qaydada başa çatdırılacaqdır.

20.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazlar 100 (bir yüz) manat qiymətinə təklif olunur.

20.10. **Təklif olunan istiqrazların məbləği:** 1 000 000 (bir milyon) manat

20.11. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**
Qanunvericiliklə nəzərdə tutulan halda istiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyində 10 (on) faiz dərəcə ilə vergi tutulur. Bununla yanaşı, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən KİV vasitəsilə investorların diqqətinə çatdırılacaqdır.
*Xərclər: İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:*

- Əqdin məbləğinin 0.02 %-i həcmində BFB komissiyası
- İnvestisiya Şirkətində vasitəçilik üçün yarana biləcək xərclər (Şirkətlərdən asılı olaraq dəyişir)
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- Bank hesabına pul köçürülməsi zamanı köçürmə xərci (bankdan asılı olaraq dəyişir)

20.12. **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**
İstiqrazlar Anderrayteri olan Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-02 saylı 09 iyun 2017-ci il tarixli İnvestisiya Şirkəti Fəaliyyəti lisenziyası və Nizamnaməsi əsasında fəaliyyət göstərən və Bakı şəhəri, Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 22L ünvanında yerləşən "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir.
Anderrayterin xidmət haqqı: Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

20.13. **Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:**

BOKT "Regional" MMC və “Xalq Kapital İnvestisiya Şirkəti” QSC arasında 003 nömrəli 01.08.2025-ci il tarixli Anderrayter müqaviləsi imzalanmışdır.

**21. Ticarətə buraxılma və onun tənzimlənməsi**

21.1. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra “Bakı Fond Birjası” QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların ticarətə qəbul edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması, ticarətinin dayandırılması, delistinqi qaydalarını və onların emitentlərinin bu qaydalar üzrə öhdəliklərinin icrası üzrə məsələlər ““Bakı Fond Birjası” QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinq” Qaydaları ilə müəyyən edilir. Qeyd olunan Qaydanın 3.3-cü bəndinə əsasən kütləvi yerləşdirmə üsulu ilə ticarət baş tutduqdan sonra qiymətli kağızlar müvafiq seqment üzrə listinqə alınır.

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən emitentin ASC “Xalq Bankı”-da açılmış müvəqqəti cari hesabına köçürülməlidir. İstiqrazların dəyəri pul ilə ödənilir.Hərracın keçirilməsi tarixi emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və emitentin internet saytında (www.regionalbokt.az) açıqlanır.

21.2. **Market meyker(lər) barədə məlumat:** Mövcud deyil.

**22. Kredit reytinqləri**

22.1. **Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri.** Mövcud deyil.